**UOT 82.(091)**

# XIX ƏSR AZƏRBAYCANIN İCTİMAİ-SİYASİ HƏYATI XURŞİDBANU NATƏVANIN İZİ İLƏ

**Zəhra QƏNİYEVA***

***Açar sözlər:*** *Qadın, Xurşidbanu Natəvan, Qarabağ, siyasi fəaliyyət, xeyriyyəçilik*

Qadınlarımız bu gün ailənin, ocağın sədaqətli qoruyucularıdır. Azərbaycan qadınının mərd, qeyrətli, ağıllı və mədəni nümunəsi xalqımızın simasıdır. Bu tədqiqat işində şair, ictimai xadim Xan qızı adı ilə tanınan Xurşidbanu Natəvandan bəhs olunur. Xurşidbanu Natəvan parlaq istedada və qabaqcıl ideallara malik şəxsiyyət olub. Onun parlaq bədii istedada malik söz sənətkarı kimi ədəbiyyat tariximizdə özünəməxsus layiqli yeri vardır. Natəvan Azərbaycan mədəniyyətində və ictimai həyatında dərin izlər qoyub. Məqalədə onun ağır həyatı, iztirabları, A.Düma ilə görüşü, Dümanın ona şahmat bağışlaması və s. öz əksini tapmışdır.

Xurşidbanu Natəvan Azərbaycan xalqının yetişdirdiyi və ədəbiyyatımıza bəxş etdiyi dahi şəxsiyyət, görkəmli şair, ictimai xadim və Qarabağ şahzadəsidir. Natəvan Azərbaycan mədəniyyəti tarixində rəssam və lirik şair kimi tanınmışdır. Görkəmli şairə Nizami, Füzuli, Nəvai kimi böyük sənətkarların yüksək poetik ənənəsindən tərbiyə alıb böyümüş, Azərbaycanda yaşayıb-yaradan qadın şairələrin ən istedadlı nümayəndəsi olmuşdur (5, 4).

Natəvan yaradıcılığa təxminən XIX yüzilliyin 50-ci illərindən başlamışdır. O, "Xurşid" imzası ilə şeirlər yazırdı. Həmin şeirlərin əksəriyyəti itib-batmış, yalnız cüzi bir hissəsi bizə gəlib çatmışdır.

Xurşidbanu Natəvan 2020-ci ildə işğaldan azad olunmuş gözəl Qarabağımızın paytaxtında 1832-ci il 15 avqust tarixində xan ailəsində dünyaya göz açmışdır. Ailədə "dürri yekta", xalq arasında isə "Xan qızı" ləqəbi ilə çağırılmışdır. Onun atası Mehdiqulu xan Cavanşir, anası isə Gəncə hakimi Cavad xanın nəticəsi Bədircahan bəyim olmuşdur.

Xan qızı kiçik yaşlarından saray tərbiyəsi görmüş, xüsusi tərbiyəçilərdən, mirzələrdən dərs almışdır. Hələ kiçik yaşlarından oxuyub-yazmağı, dini və dünyəvi bilikləri, habelə klassik poeziyanı öyrənmişdir.

Qarabağın böyük Cavanşirlər nəslindən olan Xurşidbanu Natəvan XIX əsrin ikinci yarısında yaşayıb-yaradıb və həm insanlığı, həm düşüncələri, həm də özünəməxsus dərdləri ilə xalqın yaddaşında əbədiləşib. Qəzəllərində insan qəlbinin zərif və mürəkkəb hisslərindən bəhs edən Natəvan yaradıcılığını Azərbaycan ədəbiyyatının görkəmli tədqiqatçılarından Feyzulla Qasımzadə, Əzizə Cəfərzadə, Bəylər Məmmədov və başqaları tədqiq etmişlər, haqqında namizədlik mövzusu işlənmişdir (10, 2).

"Nəcib xüsusiyyətlərə malik olan Natəvan yoxsulların və kasıbların qayğısına qalırdı; Qarabağda olan kasıb ailələrə maddi yardım edirdi, Şuşanın abadlığı yolunda çalışırdı. 1872-ci ildə onun yeddi kilometrlik bir məsafədən Şuşaya su kəməri çəkdirərək şəhərin əhalisini su ilə təmin etməsi tarixin yaddaşındadır. Bu, indiyə qədər "Xan qızı" bulağı adı ilə məşhurdur.

Şairənin oğlunun vaxtsız ölümündən sonra dərin bir kədərlə yazdığı "Olaydı" rədifli qəzəlində o, üzünü Allaha tutaraq, "nə üçün bu aləmi və məni yaradıb da hicr atəşinə odlandırdın", - deyə öz taleyindən acı-acı şikayətlənir. Onun "Neçin gəlməz", "Ölürəm" rədifli qəzəllərində də eyni motiv müşahidə olunur.

Həyat və səadət eşqi, ayrılıq dərdi, vüsal arzusu lirik şairə Natəvan şeirlərinin əsas obyektidir. Onun şeirlərinin demək olar ki, hər misrasında müsibət içində olan ananın odlu qəlbi çırpınır, "Ölürəm" rədifli qəzəli kimi:

* *AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu, doktorant*
*E-mail: zehra.qeniyeva@mail.ru*

*Varıdı sinədə dərdü-qəmi, nihan, ölürəm,*
*Fəda olum sənə, gəl eylə imtahan, ölürəm.*
*Fəraqdan gecələr yatmaram səbahə kimi,*
*Xəyali-zülfünə bağlı gedibdi can, ölürəm (1).*

Xurşidbanu Natəvanın ata tərəfdən əmi nəticəsi Geysu xanım Cavadbəy qızı onun həyat və yaradıcılığı haqqında çox danışardı. O deyirdi ki, Xurşidbanu özünə "Natəvan" yox, "Natamam" təxəllüsü götürmüşdü və bu təxəllüs onun həm yaşadığı üzüntülərə, həm də bu üzüntüləri özündə əks etdirən yaradıcılığına çox uyğun idi. Bir oğlunun vaxtsız dünyadan köçməsi, o birinin ondan ayrı düşməsi, anabir ataayrı övladların mal, mülk üstündə bir-birinə düşmən kəsilməsi, həyata keçirmək istədiklərini başa çatdıra bilməməsi Xan qızının taleyində bir natamamlıq çevrəsi yaratmışdır.

Geysu xanım Cavadbəy qızı Xurşidbanu Natəvanı "Əzablar şairi" adlandırırdı. Bunu onun haqqında yazılı ədəbiyyatda olan mənbələr və haqqında söylənilənlər də sübut edir (10, 4-8).

"Natamam"ın ifadə etdiyi məna müəyyən baxımdan "Natəvan" sözünün izahı, mənası ilə üst-üstə düşür. Məlumdur ki, "Natəvan" mənşəcə fars sözü olub "iqtidarsız, gücsüz, zəif" mənalarında işlənir (2).

Natəvan gənc ikən əvvəl atasını, daha sonra isə anasını itirmişdir. Qafqaz canişini M.S.Vorontsovun təkidi ilə erkən yaşlarında yaxşı tanımadığı Xasay xan Usmiyev adlı dövrünün savadlı, ləyaqətli, lakin tərs, tünd xasiyyətli şəxsiyyətinə ərə verilmişdi. Bu nikahdan Natəvanın Mehdiqulu xan adlı oğlu və Xanbikə adlı qızı dünyaya gəlmişdi. 1866-cı ildə Xasay xan Voronejdə intihar edir. Məlum olduğu kimi, bundan sonra Xan qızı 1869-cu ildə Seyid Hüseyn adlı yoxsul bir şuşalıya ərə getmiş, bu nikahdan beş övladı dünyaya gəlmişdir. Natəvanın ilk evliliyindən olan oğlu Mehdiqulu xan anasının rəiyyətə ərə getməsində çox narazı qalmışdı, buna görə də xidmətdə olduğu Tiflisdən nadir hallarda Şuşaya evlərinə gəlirdi. 1885-ci ildə Natəvanın ikinci ailəsindən olan oğlu Mir Abbas ağır xəstəlik nəticəsində 17 yaşında vəfat etmişdir. Bu hadisədən sonra dərin iztirab keçirən Xurşidbanu kədərli hisslərinin ifadəsi olaraq yuxarıda bəhs edilən bir sıra hüznlü şeirlər silsiləsi yazmışdır. Bu şeirlərində övladını itirmiş ana qəlbinin ağrıları yüksək bədii ifadəsini tapmışdır (10, 15).

XIX əsr Azərbaycan ədəbi mühiti bir sıra qüdrətli sənətkarlar, o cümlədən, poeziyamızı zinətləndirən Heyran xanım Dünbili, Xurşidbanu Natəvan, Fatma xanım Kəminə, Aşıq Pəri kimi istedadlı qadın şairlər də yetişdirmişdir. Natəvan zəmanəsinin işıqlı şəxsiyyətlərindən biri olmuş, "Məclisi-üns" şairlər məclisinin rəhbəri kimi təkcə Azərbaycanda deyil, bütün Zaqafqaziyada tanınmışdır.

Xalq şairləri S.Vurğun, M.Rahim, xalq yazıçıları Mehdi Hüseyn, İ.Əfəndiyev Xurşidbanunun yaradıcılığına yüksək qiymət vermişlər (9, 6).

Xurşidbanu Natəvanın həyat və yaradıcılığı şair və yazıçılarımızı da ilhamlandırmış, xalq şairləri Səməd Vurğun, Məmməd Rahim, Hüseyn Arif və başqaları onun haqqında şeirlər, poemalar yazmışlar. Xalq yazıçıları Əzizə Cəfərzadə hekayələr, İlyas Əfəndiyev "Xurşidbanu Natəvan", şairə Fəridə Əliyarbəyli "Xan qızı", yazıçı Şövkət Məmmədova "Natəvan" pyeslərini, xalq artisti Vasif Adıgözəlov "Natəvan" operasını yazmışlar. Görkəmli heykəltəraş Eldar Ömərov şairənin heykəlini yaratmış, bir sıra rəssam, xüsusilə Altay Hacıyev, Mikayıl Abdullayev və Oqtay Sadıqzadə onun bədii obrazını tablolarda əbədiləşdirmişlər.

Gənc Xurşidbanunun bədii zövqünün, dünyagörüşünün formalaşmasında qohumlarından Qasım bəy Zakir, Mirzə Camal, Mirzə Adıgözəl, Əhməd bəy Cavanşir kimi şəxsiyyətlərin yaradıcılığı, söhbətləri, şübhəsiz, mühüm rol oynamışdır. Bibiləri Ağabəyim ağa və Gövhər ağanın da şeir yazmaları, əmisi Əbülfət ağa Tutinin, anasının yaxın qohumları Kəlbəli xan Müsahib və Fətəli bəy Halinin şair olması onun şeir-sənət aləminə könül verməsinə səbəb olan amillərdəndir.

Xurşidbanunun təşəbbüsü və yardımı ilə bəslənən Qarabağ cinsli atlar 1867-ci ildə Parisdə, Əlcəzairdə, 1869-cu ildə Moskvada dünya sərgisində birincilik qazanmış, qızıl medala, fəxri fərmana layiq görülmüşdür. Tiflisdə təşkil edilən ölkə kənd təsərrüfatı sərgisində şairənin əl işləri, becərtdiyi arpa, buğda və darı sortları ən yaxşı eksponat kimi tərifnamə almışdır (6, 10-12).

Qadın zərifliyi, ülviyyəti, həyat dərkinin dərinliyi, duyum və fəhmi ilə əsərlərini mücərrədlik çərçivəsindən çıxarmağa nail olan şairənin bu özəlliyi çəkdiyi bir-birindən gözəl və mənalı rəsmlərindən də bəlli olur. Rəssamlığı şeirlərindən, şairliyi rəsmlərindən insan qəlbinə birbaşa, dərindən-dərinə nüfuz edən sənətkar zəmanəsinin incə rübablı və zərif duyğulu kübar bir xanım şairi, eyni zamanda, xalqının gələcəyini, rifahını düşünən, mədəniyyətimizin inkişafı qayğısına qalan və bunun üçün əlindən gələni əsirgəməyən ictimai xadim kimi də adını tarix səhifələrinə yazmışdır. Natəvanın soydaşlarını Ana Vətənimizi, Qarabağı, Şuşanı sevməyə, məhəbbət və ülviyyətə, bir-birinin qədrini, insanlığın dəyərini bilməyə səsləyən poeziyası bu gün də oxucu marağına səbəb olur, lirik şeir və qəzəlləri könülləri ehtizaza gətirir, yeni-yeni əsərlərin yaranmasına vəsilə olur (4, 20-21).

Natəvan 1897-ci il oktyabrın 1-də Şuşada vəfat etmişdir. Şuşa camaatı hörmət əlaməti olaraq şairənin cənazəsini Şuşadan Ağdama qədər çiyinlərində aparmış, Ağdamda "İmarət" deyilən ailə qəbiristanlığında dəfn etmişlər. Onun ölümü ziyalıların, şairlərin, ədiblərin kədərlənməsinə səbəb olmuş, Məhəmməd ağa Müştəri, Mirzə Rəhim Fəna və başqaları Natəvanın ölümü münasibəti ilə mərsiyələr yazmışlar. (7, 5)

AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda Xurşidbanu Natəvanın həyat və yaradıcılığına dair materialların axtarışı prosesi davam etməkdədir: "Bir nüsxəsi Əlyazmalar İnstitutunda saxlanan, 1928-ci ildə Azərnəşrdə çap edilən "Natəvan Xurşidbanu" kitabı bəzi cəhətlərinə görə diqqətimizi cəlb edir. 82 səhifədən ibarət kitabın redaktoru və "Ön söz" müəllifi Hənəfi Zeynallıdır. Buraya şairin həyat və yaradıcılığı barədə ümumi məlumat, onun 38 şeiri (nədənsə 37 nömrəli şeirdən sonra 51-ci gəlir), Natəvana həsr edilmiş şeirlər, qəzəllərinə yazılmış nəzirələr daxildir. Vaxtilə natəvanşünaslığa dəyərli töhfə olmuş, bu mövzuda yazılmış sonrakı tədqiqatlarda nəzərə alınan kitabın tərtibçisi qeyd edilməyib. Kitabın Əlyazmalar İnstitutunda saxlanan ikinci nəşrinin əlyazması aşkar edilməsəydi, əsərin tərtibçisini tapmaq mümkün olmayacaqdı. İnstitutda C-218 şifri altında mühafizə edilən əlyazma "Natəvan Xurşidbanu" kitabının çap edilməmiş ikinci nəşrinin əlyazmasıdır. 218 səhifəlik bu məcmuədə toplanan materiallar, Natəvanın şeirləri, həyat və yaradıcılığı, ədəbi aləmdə nüfuzu, əsərlərinə yazılan nəzirələr barədə məlumatlar həcmcə birinci nəşrdən əhəmiyyətli dərəcədə çoxdur. Toplu, ümumiyyətlə, XIX əsr ədəbiyyat tariximizin öyrənilməsi baxımından böyük maraq doğurur. Buradakı "And verirəm" və "Zeynəb" rədifli iki şeirə-növhəyə Xurşidbanunun çap edilmiş şeir kitablarında rast gəlmirik.

AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda şairənin M-117 şifrəli "Şeirlər" albomu da mühafizə olunur, burada şeirlər şairənin öz əli ilə çəkdiyi rəsmlərlə bəzənmişdir.

Araz çayından Ağcabədiyə çəkilən su arxı, Bakıdan Şıx kəndinə gedən baş yol onun adı ilə bağlıdır (10, 7).

1858-ci ildə Xan qızı ikinci dəfə ailəsi ilə birgə Bakıya gəldiyi zaman şəhər hakimi Piquliyevskinin evində qonaq qalarkən məşhur fransız yazıçısı Aleksandr Düma ilə görüşüb, tanış olublar. Xasay Xanın mükəmməl fransız dili bilgisi nəticəsində onlar dostlaşmışdılar. Bu hədiyyənin qarşılığında A.Düma Xan qızına fil sümüyündən şahmat bağışlamışdır. A.Düma ilə Xasay xan arasında səmimi dostluq münasibəti yaranır. Fransız yazıçısı özünün "Qafqaza səyahət" kitabında bu ailənin adını hörmətlə yad edir: "Mənim dəvət olunduğum evdəki məclisdə iki tatar (azərbaycanlı – Z.Ə) knyaz qadını və kiçiyinin əri iştirak edirdilər. Açıq deməliyəm ki, onlar gəlişimizi səbirsizliklə gözləyib bizi sevinclə, ehtiramla qarşıladılar. Knyaz qadınlarından biri Qarabağın son hakimi Mehdiqulu xanın arvadı, digəri onun qızı idi. Anasına 40, qızına isə 20 yaş vermək olardı. İkisi də milli paltar geyinmişdir. Qızı bu bahalı, həm də zərif paltarda olduqca gözəl və cazibədar görünürdü. Öz anası kimi geyinmiş 3-4 yaşlı qız uşağı təəccüb doğuran iri qara gözləri ilə bizə baxırdı" (3, 285).

Təəssüf ki, Aleksandr Düma vaxtın azlığındanmı, yaxud müsəlman qadınlarının yad kişilərdən çəkindiyini bildiyindənmi, gənc Xurşidbanunun incə təbli şair olmasından xəbər tuta bilməmişdir. Görünür, Natəvan da Azərbaycan qadınlarına xas olan utancaqlıq və təvazökarlıq üzündən yazdığı şeirləri qonağa göstərməmiş, Xasay xan öz arvadını bir şair kimi təqdim etmək istəməmişdir (9, 44).

Xurşidbanunun atası Mehdiqulu xan savadlı, sakit və həlim təbiətə malik bir şəxs olmuşdur. 17 il Qarabağda hakimiyyət başında dayanan xan siyasi məsələlərdə həmişə Rusiyaya arxalanmışdır.

Xurşidbanunun mədəni cəmiyyətlərdə qazandığı nüfuzdan və tutduğu mövqedən bəhs edən "Tərcüman" qəzeti 1897-ci il 44-cü nömrəsində yazırdı: "Xurşidbanu xanım əhvala görə bir növ tərzi-məişət qurub, etiqadat və adəti-milliyyəsini mühafizə etməklə bərabər, zəmai-cədidin iqtizasına görə hərəkət edərdi. Qayət zəki və aqilə olaraq ta məşhur vali knyaz Vorontsov zamanında rus və gürcü cəmiyyəti münəvvərəsinə qoşulub, rəğbətli bir mövqe tutmuş idi" (9, 24).

Xan qızı bəzən ictimai-faydalı işlərə qarışır və xeyirxah təşəbbüslərə qoşulurdu. Natəvan anası Bədircahan bəyimlə mədəniyyətin, maarifin yayılmasına köməklik göstərirdi. Azərbaycan şəhərlərində açılan yeni məktəblərin təsisinə ana və bala əlindən gələn yardımı əsirgəmirdilər. "Kavkaz" qəzeti Şamaxıda "Müqəddəs Nina" qız məktəbinin açılması haqqında 1856-cı il 49-cu nömrəsində yazırdı: "Şamaxıda qızlar üçün təsis olunan məktəbə Bədircahan bəyim min manat pul bəxşiş etmişdir". Bədircahan bəyim və Xurşidbanu nəinki məktəblərin açılmasına köməklik edir, hətta ehtiyacı olan alim, şair və musiqiçilərə də əl tutur, yoxsul təbəqələrin təhsil xərcini ödəyirdilər. Ümumiyyətlə, bu dövrdə Qarabağda mədəni-maarif və təlim-tərbiyə işlərinin canlanması ilə bağlı olaraq, Xan qızının xeyirxah fəaliyyəti, ictimai xidməti də genişlənib artırdı (9, 35). Xeyriyyəçilik missiyası, çox güman ki, anası, qacarlar nəslindən olan Bədircahan bəyimdən qaynaqlanmışdır.

Natəvanda iki böyük nəslin - Cavanşirlərin və Ziyadoğlu Qacarların qanı vardır.

Xan qızının həyatda rastlaşdığı çətinliklər, sınaqlar ona bir müdriklik bəxş etmişdir. Onun hal əhli olmasını şərtləndirmişdir. O, qürbət acısını dadmışdı, övlad itkisi görmüşdü, mal-mülk itkisi yaşamışdır. Bunların hamısı şairə bir olğunluq gətirmişdir. Natəvan hələ gənc yaşlarında ikən atasını itirir. Ailənin tək övladı olduğundan onların tabeçiliyində olan kəndlərin idarəetməsi onun zərif çiyinlərinin üstünə düşür. O, üzərinə düşən bu işin öhdəsindən böyük məsuliyyətlə, ləyaqət hissi ilə gəlir. O, "Xan qızı" ləqəbini "El anası" adı və statusu ilə ömrünün sonuna qədər çətinliklərlə olsa da, ləyaqətlə davam etdirə bilir.

Xurşidbanu Natəvanın zamanında Şuşada məktəb, məscid, ticarət evləri, teatr, yay və qış klubları, realni məktəbin binaları və bir çox digər binalar tikilmişdir. Deyilənlərə görə, Natəvandan kömək istəyən heç bir kəsin əlini boş qaytarmamış, köməksizlərin həmişə köməyi olmuşdur. Ona görə Şuşa əhli onu ürəkdən sevmiş və dərin hörmət bəsləmişdir. Xan qızı xeyirxahlığı və xeyriyyəçiliyi ilə Şuşa əhalisinin qəlbinə yol tapmışdır. Şuşa əhalisinin həm maariflənməsi, həm ictimai-mədəni səviyyəsinin qalxması üçün əlindən gələni edirdi.

Qeyd edək ki, 1872-ci ildə Şuşa ziyalılarının təşəbbüsü ilə "Məclisi-üns" ədəbi məclisi yaranır. Natəvan buna rəhbərliyi həm maddi, hə mənəvi baxımdan öz öhdəsinə götürür. Bu məclisdə şairlər, musiqiçilər, xanəndələr iştirak edirdi, elmi-ədəbi söhbətlər, müzakirələr aparılırdı. Müzakirələr, yığıncaqlar, toplantılar həm Xurşidbanu Natəvanın, həm də o məclisin digər üzvlərinin yaradıcılığının püxtələşməsinə, cilalanmasına böyük köməklik göstərmişdir. Çox keçmir ki, bu ədəbi məclisin, onun üzvlərinin, xüsusilə Natəvanın sorağı Qarabağı aşıb Şirvana, Dərbəndə, İrəvana qədər çatır.

Natəvanın şəxsiyyət kimi özünü təsdiqləməsində, vətənə, doğulduğu torpağa bağlı olmasında həm də mənsub olduğu soy-kökün, nəslin böyük təsirinin olduğu heç şübhəsiz ki, danılmazdır. Xan qızı xeyriyyəçi messenat və fəal ictimai xadim kimi də xalqın yaddaşına həkk olunmuşdur.

## ƏDƏBİYYAT


1. "Azərbaycan ədəbiyyatı tarixi". Üç cilddə, II cild. Azərbaycan SSR Elmlər Akademiyası Nəşriyyatı. Bakı 1960.
2. "Azərbaycan dilinin izahlı lüğəti". III cild. "Elm" nəşriyyatı. Bakı-1983.
3. Düma Aleksandr. Kavkaz Puteşestvie Aleksandra Düma. Tiflis, 1861, s.285.
4. Fuad Esmira, Filologiya üzrə fəlsəfə doktoru. 525-ci qəzet.- 2012.- 25 avqust.- s.20-21.
5. Xurşidbanu Natəvan. Əsərləri. Bakı, "Lider nəşriyyat", 2004, 88 s.4.
6. Xurşidbanu Natəvan. "Neçin gəlməz". Əsərləri. Bakı. Təhsil-2012.səh 159, s.10-11.
7. İsgəndərli Xədicə Ədalət.- 2012.- 10 oktyabr.- s.5.

8. “Qarabağın baməzə adamları” kitabından 1992-ci il.
9. Məmmədov Bəylər. Xurşidbanu Natəvan. Bakı, Yazıçı, 1983, 159 s.6.
10. Tağıyev Cəmil. “Xan qızı...”. “Şur” 2011, 120 s.2.

***РЕЗЮМЕ***

***Захра Ганиева***

***Общественно-политическая жизнь Азербайджана в XIX веке по следам Хуршудбану Натавана***

***Ключевые слова:*** *Женщина, Хуршудбану Натаван, Карабах, политическая деятельность, благотворительность*

Сегодня наши женщины - преданные хранители семьи, очага. Мужественный, храбрый, усердный, умный и культурный пример азербайджанской женщины - это лицо нашего народа. В этой статье исследуется, известный поэт и общественный деятель хан Кызы Хуршидбану Натаван. Хуршидбану Натаван обладала ярким талантом и передовыми идеалами. Хуршидбану Натаван занимает особое место в истории нашей литературы как имеющихся блестящий талант. Она оставила глубокие следы в азербайджанской культуре и общественной жизни. А также в статье отражены тяжелая жизнь поэта, встреча с Дюмой, подарок Дюмы поэтессе шахматы.

***SUMMARY***

***Zahra Ganiyeva***

***The socio-political life of Azerbaijan in the 19th century in the footsteps of Khurshudbanu Natavan***

***Key words:*** *Woman, Khurshudbanu Natavan, Karabakh, political activity, charity*

Today, our women are loyal guardians of the family and the hearth. The courage, zeal, intelligence and cultural example of the Azerbaijani woman is the face of our people. This study deals with the famous poet and public figure ‘Khan Kizi’ Khurshidbanu Natavan. Khurshidbanu Natavan had bright talent and advanced ideals. The famous poetess occupies a special place in the history of our literature as a brilliant talent. She left deep traces in Azerbaijani culture and public life. The article describes her hard life, sufferings, as well as her meeting with A. Duma, in which Duma gave her chess as a gift.